# ƏHƏMİYYƏTİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR

*31 dekabr 2018-ci il tarixinə*

**VÖEN:** 1500486991

**Müəssisə, təşkilat:** Ana Vətən Partiyası

**Sahə (fəaliyyət növü):** Digər qruplapa daxil edilməyən sair siyasi təşkilatların fəaliyyəti

**Mülkiyyətin növü (hüquqi forma):** Xüsusi

**Ünvan:** Bakı şəhəri, Mərdanov Qardaşları küçəsi, ev – 14

**1. Ana Vətən Partiyası haqqında.**

Təşkilat Ədliyyə Nazirliyində 01 sentyabr 1995-ci ildə qeydiyyatdan keçmiş və o vaxtan da fəaliyyətə başlayıb. Hesabat dövründə işçilərin orta sayı 9 nəfər olmuşdur.

**Missiya və məqsədlər:**

Ana Vətən Partiyasının strateji məqsədi Azərbaycanın işgal olunmuş tarixi ərazi bütövlüyünə,onun vahidliyinə nail olmaqdır.

Partiyanın yaxın vəzifələri Azərbaycanın dövlət müstəqilliyini,ərazi bütövlüyünü, unitarlığını qorumaq, ölkədə demokratik, hüquqi dövlət quruculuğu və onun dünyanın nüfuzlu subyektinə çevrilməsi uğrunda mübarizə aparmaqdan ibarətdir.

Ölkədə yüksək inkişaf etmiş məhsuldar qüvvəyə və kütləvi istehlaka əsaslanan sənaye cəmiyyəti qurmaq partiyanın əsas məqsəd və vəzifələrindəndir.

**2. Əhəmiyyəti uçot siyasəti.**

**1. Hesabatın hazırlamasının əsasları:**

Ana Vətən Partiyasının maliyyə hesabatı. Azərbaycan Respublikası Siyası partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydasına uyğun hazırlanıb. Maliyyə hesabatı Azərbaycan manatı ilə hazırlanmışdır.

**2. Qiymətləndirmə metodu:**

Maliyyə fəaliyyətinin nəticələri və maliyyə vəziyyəti haqqında hesabatları hazırlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla aktivləri ilkin dəyər uçot prinsipinə əsaslanaraq hazırlanmışdır.

**3. Maliyyə fəaliyyətinin ölçülməsinə maddi təsir göstərən spesifik uçot:**

Siyasətləri aşağıdakılardır:

**I. Gəlirin tanınması:**

Üzvlük haqqları, İanələr və Dövlət büdcəsindən daxilolmalar.

Ana Vətən Partiyasının gəlir mənbələri dövlət büdcəsindən daxil ola biləcək gəlirlərdən ibarətdir.

**II .İşçilərin mükafatlandırılması:**

İşçilərə hesablanmış əmək haqqı və s. gəlir haqqları onların aid olduğu hesabat dövrünə aid edilir. İllik məzuniyyət ödənişi cari dövrü üçün əmək haqqının olmasına əsasən hesablanır.

Bundan əlavə Ana Vətən Partiyası Azərbaycan dövlət sosial müdafiə fonduna hər bir işçinin əmək haqqından 25% (22% və 3%) məcburi sosial sığorta haqqı ödəyir. Bu məbləğ yaranma tarixində xərc kimi tanınır.

**III. Əsas vəsaitlər.**

**Balans dəyəri:**

Əsas vəsaitlər onların satınalma dəyəri və onlara hesablanmış amortizasiya və dəyərdəndüşmə məbləği çıxılmaqla göstərilir.

**Amortizasiya:**

Amortizasiya, Azərbaycanın Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi normalar əsasında əsas vəsaitin azalan qalıq metodu ilə hesablanmışdır.

Əsas vəsaitlərin kateqoriyaları üçün istifadə olunan amortizasiya normaları aşağıdakılardır:

- Avadanlıq: (25%) - 9 il;
- Hesablama texnikası (kompyüter): (15%) - 5 il

**IV. Xarici valyuta.**

Xarici valyuta ilə aparılan əməliyyat cari ildə olmamışdır.

**V. Vergitutma.**

Ana Vətən Partiyasının işçilərinin aylıq əmək haqqlarından Azərbaycan Respublikası Vergi Məcəllesinə uyğun olaraq gəlir vergisi ödənilib.

**VI. Uçot siyasətlərin dəyişikliklər.**

Cari ildə siyasətlərində heç bir dəyişiklik edilməmişdir.

**3. Maliyyə hesabatı üzrə qeydlər.**

**1.Torpaq, tikili və avadanlıq:**

2013-ci ilin mart ayında 3891,64 manat dəyərində kompyüter avadanlıqları alınmış, iyun ayında 1280,0 manat dəyərində 2 ədəd kondisioner alınmışdır, 2015-ci ildə 5000,0 manat dəyərində surətçıxaran printer alınmışdır. 2018-ci ildə 1190,80 manat amortizasıya hesablandıqdan sonra 4058,47 manat dəyərində əsas vəsaitlər qalıq dəyəri ilə balansda göstərilmişdir.

**2. Ehtiyatlar:**

Dövr ərzində Partiyanın məlumat kitabçası və proqramı çap olunmuşdur. Partiyanın loqosu ilə qələm, bloknot, brelok, 2019-cu ilin divar və stolüstü təqvimi hazırlanmış və bütövlükdə xərclərə silinmişdir.

**3. Pul vəsaitləri və onların ekvivalentləri:**

Hesabat ilinin sonunda Partiyanın kassa və bank hesabinda qalmış pul qalığı aşağıdaki kimi olmuşdur.

| | |
|---|---|
| Pul vəsaitləri və onun ekvivalenti | - 1851,82 AZN |
| O cümlədən: | |
| Banklarda olan hesablaşma hesabları | - 12,09 AZN |
| Kassa | - 1839,73 AZN |
| Sair qısamüddətli aktivlər | - 0,20 AZN |
| **Cəmi Pul vəsaitləri** | - 1852,02 AZN |

**4. Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər):**

Dövr ərzində hesablanmış xərclərdən əsas vəsaitlərinin qalıq dəyərini çıxdıqdan sonra qalan dəyərin xalis aktivlərdəki payını göstərir. Bu hesabda yaranan məbləğ - 4546,36 manat.

**5. Qısamüddətli kreditor borcları:**

Partiyanın qısamüddətli dövrdə ödənilməsi tələb olunan işçilərə və sair kreditorlara olan borclarıdır. Hesabat dövründə qısamüddətli kreditor borcları aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| Muzdlu işlə əlaqədar ö/m tutulan vergi | - 416,68 AZN |
| DSMF | - 907,65 AZN |
| İşsızlikdən sığorta üzrə ödənişlər | - 39,80 AZN |

**Cəmi qısamüddətli kreditor borcları - 1364,13 AZN**

**6. Üzvlük haqları:**

Hesabat dövründə üzvlük haqqları ödənilməmişdir.

**7. Əmlakdan götürülən gəlir:**

Hesabat dövründə Partiyanın daşınmaz əmlakı olmamışdır.

**8.Tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlilrlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir.**

Hesabat dövründə Partiyanın tədbirlərindən,mətbu nəşrlərin və məqalələrin yayılmasından gəliri olmamışdır.

**9. İanələr şəklində götürülən gəlir**

Hesabat dövründə Partiya üzvlərindən və kənar şəxslərdən ianə daxil olmamışdır.

**10. Seçki kompaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait.**

Hesabat dövründə Partiyaya dövlət tərəfindən seçkinin keçirilməsi ilə bağlı xərclərin ödənilməsi məqsədi ilə vəsait daxil olmamışdır.

**11. Aşağı təşkilatların ödənişləri.**

Hesabat dövründə aşağı təşkilatdan vəsait daxil olmamışdır.

**12 . Dövlət büdcəsindən ayrılan vəsait.**

Hesabat dövründə Partiya üçün dövlət tərəfindən cari xərclərin ödənilməsi məqsədi ilə ayrılan vəsaitlərdir. Hesabat dövründə Partiyaya dövlət tərəfindən **135714,28 manat** vəsait daxil olmuşdur.

**13. Cari işlərə sərf olunan vəsait.**

Partiya əsas fəaliyyətinin davam etdirilməsi üçün çəkilmiş əmək haqqı xərcləri, alınmış dəftərxana ləvazimatlarının xərcləri, kommunal xərcləri, amortizasiya xərcləri və s. əməliyyət xərclərinin cəmini göstərir. Hesabat dövründə bu mabləğ **136505,88 AZN** olmuşdur.

| | |
|---|---|
| Əmək haqqı | 47255,60 |
| DSMF | 10396,30 |
| İşsızlikdən sığorta üzrə ödənişlər | 216,40 |

| | |
|---|---|
| Ödəmə mənbəyindən tutulan vergi | 735,00 |
| Bank xidməti | 1594,67 |
| Yanacaq | 3684,50 |
| Çap işləri | 20500,00 |
| Tərcümə işləri | 1500,00 |
| Ezamiyyə xərcləri | 397,00 |
| Dəftərxana malları | 13450,00 |
| Kitabların çapı | 300,00 |
| Auditor xidməti | 500,00 |
| Avtomobilin icarəsi | 3600,00 |
| 8 mart üçün alınmış hədiyyə və gül | 1115,00 |
| Təsərrüfat xərcləri | 316,66 |
| **Cəmi:** | **105561,13** |

**14. Siyası partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər:**

Hesabat dövründə bu maddə **17193,95 AZN** olmuşdur.

| | |
|---|---|
| İcarə haqqı | 15710,52 |
| Tədbir üçün icarə haqqı | 508,16 |
| Telefon və internet haqqı | 706,20 |
| «Xalq» qəzetində hesabatın çapı | 269,07 |
| **Cəmi:** | **17193,95** |

**15. Aşağı təşkilatlara ödənişlər:**

Hesabat dövründə bu maddə 12560,00 AZN olmuşdur.

Rayon təşkilatlarının icarə haqqı – 1080,00 manat.

O cümlədən: Qusar rayonuna- 480 manat

Ağdam rayonu - 600 manat

Rayon təşkilatlarına ayrılan pul - 11480,00 manat

(11 aprel 2018-ci il tarixində keçiriləcək Prezident seçkilərində Partiyanın yaxından iştirakını təmin etmək məqsədilə Ağstafa,Şabran, Xəzər, Sabunçu,Xətai, Neftçala, Binəqədi, Pirallahı, Nərimanov, Sumqayıt, Qubadlı, Saatlı, Ağcabədi, İmişli, Quba,

Kürdəmir, Siyəzən, İsmayıllı, Biləsuvar, Oğuz, Hacıqabul,Şirvan, Tərtər, Ağsu, Sumqayıt, Lerik, Füzuli, Füzuli, Şəmkir, Şamaxı,Qusar, Bərdə, Balakən, Zakatala, Lənkəran, Salyan, Cəlilabad, Ağdaş, Masallı, Qəbələ rayon (şəhər): təşkilatlarının hər birinə 280,0 manat məbləğində pul vəsaiti ayrılıb.)

16. Amortizasiya xərci 1190,80 manat

17. Ümumi mənfəət

Dövr ərzində ümumi mənfəət (zərər) məbləği -791,6 AZN təşkil edir.

**Ana Vətən Partiyasının sədri:** **F.R.Ağamalı**

AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏN PARTİYASI AVP Mərkəzi surasi

**M.Y.**

**«22» fevral 2019-cu il**